*26 fevral Xocalı Soyqırımının Anım Günüdür*

# Xocalı faciəsi–27 il

1988-ci ildən başlamış Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə ən müdhiş, faciəli, tarixdə analoqu çox az olan hadisələrdən biri Qarabağın qədim insan məskənlərindən olan Xocalıda baş vermiş soyqırım olmuşdur.

1992-ci ilin qanlı faciəsinə kimi Xocalıda 7 min əhali yaşayırdı. Məlum hadisələr dövründə Ermənistandan, qonşu Xankəndindən ermənilər tərəfindən didərgin salınmış xeyli azərbaycanlı və 1989-cu ildə Fərqanədən qovulmuş Axısqa türkləri də Xocalıda məskunlaşmışdılar.

1992-ci il fevralın 25-dən 26-sına keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum etmişlər. Bu zaman şəhərdə 3000 nəfərə qədər dinc yerli əhali qalmışdı. Əvvəlcə şəhər dörd tərəfdən erməni




qoşunları tərəfindən əhatə olunmuş, sonra isə Xocalıya artileriya və ağır hərbi texnikadan güclü atəş açılmışdır. Az bir vaxt ərzində baş verən yanğın nəticəsində, şəhər tamamilə alova bürünmüşdür. Cəmi 50-60 yüngül atıcı silahı olan hərbi sursatı qurtarmış şəhərin azsaylı müdafiəçiləri və əliyalın yerli əhali buranı tərk etməyə məcbur olmuşlar. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən zəbt edilmişdir.

Bir gecənin içərisində qədim Xocalı yerlə yeksan olunmuşdur.

Şəhəri tərk etməyə məcbur olan əhali dağlara, meşələrə qaçmışdır. Hər tərəfdə silahlı ermənilər dinc əhalini güllələmiş, onlara amansız divan tutmuşdur. Beləliklə, soyuq, qarlı fevral gecəsində xeyli qız-gəlin əsir düşmüş, girov götürülmüşlər. Erməni silahından yayınıb meşələrə, dağlara qaçanların da çoxu soyuqdan, şaxtadan məhv olmuşdur.

Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində Xocalı əhalisinin 613 nəfəri öldürülmüş, 487 nəfəri şikəst olmuş, 1275 nəfər dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərinə məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyildir.

Xocalıda öldürülmüş 613 nəfərdən 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri qocalar olmuşlar.

Xocalı faciəsində 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 uşaq isə valideyinlərindən birini itirmişdir.

Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, üzlərinin dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yarılmışdır. Ermənilər hətta meyitləri də təhqir etmişlər…

Azərbaycan xalqı və onun dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır. Bu dəhşətli soyqırımı törədənlər gec-tez layiq olduqları cəzanı alacaqlar.

Ümummilli lider Heydər Əliyev 1 mart 1994-cü ildə bu haqda xüsusi Fərman imzalamışdır. Azərbaycan Respublikasının Milli Məclisinin Qərarı ilə 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir.

Respublikamızın paytaxtı Bakı şəhərində xocalı soyqırımı faciəsinə həsr olunmuş abidə ucaldılmışdır.

**Qüdrət SƏMƏDOV,**
**«Qəbələ»**

# Siqaret çəkmək sağlamlığa ziyandır

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə hər il dünyada 5 milyondan artıq insan tütünçəkmədən, 600 minə qədər insan isə yaxınlığında istifadə olunan siqaret tüstüsünün təsirindən həyatlarını itirir.

Aparılan araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, siqaret tüstüsündə 4 minədək kimyəvi maddə vardır. Onlardan ən azı 250-si zərərli maddələr, 50-si isə kanserogen (xərçəng yaradan) maddələrdir.

Tütün çəkmək iştahanın pozulmasına, həzm prosesinin çətinləşməsinə, dişlərin saralmasına, mədə yarası, qırtlaq, ağ ciyər, dodaq, dil və qida borusu xərçənginin yaranmasına səbəb olur. Öskürmə, xronik-bronxit və ağ ciyərlərin emfizeması yaranır.

Tütünçəkmə damar divarlarının elastikliyini pozmaqla, ətrafların damarlarında qanın paylanmasını maksimum azaladaraq endoartiritə və qanqrenaya səbəb olur. Bu isə son nəticədə əl və ayaqların amputasiyasına (kəsilməsinə), şikəstliyə səbəb ola bilər.

Siqaret çəkmək bədənin insulin ifraz etmə qabiliyyətini azaldır. Bu da şəkər xəstəliyinə yol acır.

Gündə 25 ədəd siqaret çəkmək qırtlaq xərçənginə tutulma riskini artırır. Bu da əvvəlcə tənəffüs çətinliyinə, sonrakı mərhələlərdə isə danışıq qabiliyyətinin itməsinə səbəb olur.

Siqaret çəkənlərdə bədənin müqaviməti zəiflədiyinə görə belə adamlar xəstəliklərə daha tez yoluxurlar.

Tütünçəkmə nəticəsində orqanizmdə vitaminlərin, o cümlədən C vitamininin mənimsənilməsi çətinləşir və damarların divarında xolesterin yığılması sürətlənir.

Miokard infarktını yaradan amillərdən biri də siqaretdir. Aterosklerozla əlaqədar olaraq qan damarları daralır və ürək əzələlərinin qidalanması yavaşıyır. Cox vaxt qan damarlarının spazması baş verir və ürək əzələləri qidalanmadığından toxuma ölür. Nəticədə miokard infarktı baş verir.

Beyini qidalandıran damarlarda da elastikliyin azalması iflic törədə bilir.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə tütünçəkmə hər il ürək-damar xəstəliklərindən təxminən 2 milyon insanın ölümünə səbəb olur. Bütün ürək-damar xəstəliklərinin 20-25 faizi tütün çəkmənin nəticəsində baş verir.

Tütünçəkmə insanların nəsilartırma fəaliyyətinə də mənfi təsir göstərir.

Daimi siqaret çəkilməsi dəri quruluşunu pozaraq qırışıqlara gətirib çıxarır. Bundan əlavə dişlər saralır və qaralır, dırnaqlar zəifləyir, beləliklə tez qocalma baş verir.

Tütün çəkənlərdə xroniki qastirit, mədə və oniki barmaq bağırsağın xoraları geniş müşahidə olunur və belə şəxslərdə bu xəstəliklərin müalicəyə çətin tabe olan kəskinləşməsi baş verir. Tütün çəkən kişilərin 40 faizi hələ təqaüd yaşına çatmadan həyatlarını itirirlər.

Tütünün böyük fəsadlarından biri də onun passiv şəkildə yayılmasıdır. Tütüncəkmə ətrafdakı insanlar üçün də cox təhlükəlidir. Belə ki, siqaret çəkən şəxsin yanında durmaq və ya onunla təmasda olmaq nəticəsində tütünün zəhərli maddələri insan orqanizminə daxil olur ki, bu da passiv tütün çəkmə adlanır. Aparılan təhlillər göstərmişdir ki, tütünçəkmənin təsirinə məruz qalan, tütün çəkməyən insanlarda ağ ciyər xərçənginin yaranma riskinin yüksəlməsi 30-35 faiz, ürək xəstəliklərinin yaranma riskinin yüksəlməsi 25 faizdir.

Odur ki, tütünçəkməyə vərdiş etməyənlər hec bir zaman bu işə başlamasınlar. Cəkənlər isə bu zərərli vərdişdən azad olmanın yollarını axtarsınlar və siqaretdən tamamilə imtina etsinlər.

**Atif MƏMMƏDOB,**
**GEM-in sanitariya şöbəsinin müdiri.**

# 21 fevral - Beynəlxalq Ana Dili Günüdür

Fevralın 21-i bütün dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur. 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə UNESCO tərəfindən fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan edilib.

Beynəlxalq Ana Dili Günü 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparan 4 tələbənin öldürülməsi hadisəsini bir daha insanların xatirəsində canlanmağa imkan yaradır.

Millətin dilinin dövlət dili statusuna yüksəlməsi tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda, dilinin zənginliyinin sübutudur. Bu mənada dilin dövlət dili statusu qazanması həqiqətən qürur gətirən tarixi hadisədir.Azərbaycan dili bu tarixi hadisəni yaşamışdır.




Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, beynəlxalq münasibətlər sisteminə yol tapması ulu öndər Heydər Əliyevin dilimizin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.

2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım olmuşdur. Bu sənəd ümummilli lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətidırır.

Dil hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən mühüm və ən güclü vasitədir. Hər bir insan öz ana dilini yaxşı bilməli və onu qorumalıdır. Ana dili insanın mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün genişlənməsində, mükəmməl təhsil almasında, öz soydaşları ilə ünsiyyət qurmasında mühüm rol oynayır. Ana dili millətin özünəməxsusluğunu qorumaqla yanaşı, tərcümə vasitəsilə başqa xalqların mədəni irsi ilə tanış olmağa, onlarla ünsiyyət qurnin, qayğısının parlaq nümunələrindən biridir.

Hazırda bu ənənələri Prezident İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlətimizin başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli Sərəncamı və bu istiqamətdə görülən digər işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Ana dilimizi qorumaq və inkişaf etdirmək hər bir azərbaycanlının müqəddəs borcudur.

**"Qəbələ"**